Forum

# "KASKAD-HİDRO" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Konsolidasiya edilmiş maliyyə hesabatları**

**31 dekabr 2021-ci il tarixinə bitən il üzrə**

**Müstəqil auditorun hesabatı ilə birlikdə**

**BAKI 2022**

# MÜNDƏRİCAT

## Müstəqil auditorun hesabatı

### Konsolidasiya edilmiş maliyyə hesabatları


| | Səhifə |
|---|---|
| Maliyyə hesabatlarını hazırlanması və təsdiq edilməsi üzrə rəhbərliyin məsuliyyəti haqqında heasabat | 1 |
| Müstəqil Auditor Rəyi (hesabatı) | 2-4 |
| 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KONSOLDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI: | |
| Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat (Balans) | 5 |
| Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat | 6 |
| Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7 |
| Konsolidasiya edilmiş kapitalda dəyisikliklər haqqında hesabat | 8 |
| Konsolidasiya edilmiş maliyyə hesabatlarına qeydlər | 9-14 |

**31 DEKABR 2021-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA HESABAT**

Müstəqil auditor hesabatının 2-ci və 3-cü səhifələrində təqdim olunmus müstəqil auditor rəyində sərh olunan müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "KASKAD-HİDRO" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (bundan sonra **"Cəmiyyət")** maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyitindən fərqləndirmək məqsədilə hazırlanmısdır. Rəhbərlik **"Cəmiyyət"**-ın 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə bitən il üzrə nağd vəsaitlərinin hərəkətini və kapitalda dəyisikliklər hesabatının düzgün əks etdirən və Konsolidasiya Maliyyə Hesabatının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uygun olan maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik asagıdakılara cavabdehdir:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl surətdə tətbiqinə;
- Ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- Maliyyə hesabatlarında açıqlanmış və izah edilmiş hər hansı mühüm kənarlaşmaların "MMUS"-in tələblərinə uyğunluğuna və;
- **"Cəmiyyət"**-ın təxmin edilə bilən dövr ərzində öz fəaliyyətini davam etdirməsi mümkün olmayana qədər maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət dasıyır:

- **"Cəmiyyət"**-da effektiv və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- **"Cəmiyyət"**-ın maliyyə vəziyyətini hər zaman dəqiq açıqlayan və maliyyə hesabatlarının MMUS-ın tələblərinə uygun olduguna təminat verən mühasibat yazılışlarının hər zaman dəqiq və düzgün saxlanılmasına;
- Mühasibat yazılışlarının Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu qaydalarına uygun aparılmasına;
- **"Cəmiyyət"**-ın aktivlərinin mühafizə edilməsi üçün mümkün tədbirlərin görülməsinə və;
- Saxtakarlıq hallarının və digər səhvlərin müəyyən edilməsinə və qarsısının alınmasına.

**Direktor**

**SABİR HƏMİDOV İSA OĞLU**

FORUM LLAC
153 Vidadi Street
Baku, AZ1095
Azerbaijan
Tel/Fax: +994 (0) 12 596 30 42
E-mail: office@forum.baku.az
www.forum.baku.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "KASKAD-HİDRO" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN RƏHBƏRLİYİNƏ

### Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə dair hesabat

### RƏY

Biz, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən **FORUM MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR MÜƏSSİSƏSİ** - nə (VÖEN: 3100089731) verilmiş 15 may 2019-cu il tarixli AT seriyalı 020 saylı lisenziyasına və **"KASKAD-HİDRO" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ** (VÖEN: 1501942461) (bundan sonra "Cəmiyyət" adlanacaq) ilə bağlanmış 06 My 2022-ci il tarixli M-14017 saylı müqaviləyə əsasən 31.12.2021 -ci il tarixində bitən il üzrə **"KASKAD-HİDRO" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ-NİN** (VÖEN: 1501942461) və onun törəmə müəssisəsi olan **"KASKAD-AGRO" Məhdud Məsuliyyətli Cəmiyyətinin** (VÖEN: 1503790871) 2021-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla konsolidasiya edilmiş maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2021-ci il tarixinə **"KASKAD-HİDRO" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN** konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

### Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın "Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti" bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları daxil olmaqla) ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Qrupdan müstəqillik və MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Əsas audit məsələləri

Əsas audit məsələləri peşəkar mühakiməmizə uyğun olaraq cari dövrün konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üçün daha önəmli olan məsələlərdir. Həmin məsələlər konsolidasiya edilmiş maliyyə hesabatlarının tərəfimizdən aparılan auditi kontekstində və bu hesabatlar üzrə rəyimiz formalaşdığı zaman ümumi şəkildə nəzərdən keçirilmişdir. Sözügedən məsələlərə dair biz ayrıca rəy bildirmirik. Aşağıda göstərilən məsələnin audit zamanı hansı şəkildə nəzərdən keçirildiyi həmin kontekstdə təsvir olunur.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır. Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinənəzarətə görə məsuliyyət daşıyır.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti
Bizim məqsədimiz ümumiyyətlə konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu şəkildə istifadəçilərin hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

Rəhbərlik düzgün və ədalətli təsəvvür yaradan maliyyə hesabatlarının Beynəlxalq maliyyə hesabatları standartlarına uyğun hazırlanmasına görə məsuliyyət daşıyır.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəkkaklıq nümayiş etdiririk. Biz həmçinin:

• Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
• Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
•İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
•Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edimməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
• Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrk. Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda,məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

Forum MMAM-nin
Direktoru: _______________ Aydın Səttar

Baş auditor: _______________ Yaqub Abdullayev

Azərbaycan Respublikası • FORUM • Azerbaijan Republic

"17" May 2022-ci il.

***31 dekabr 2021-cu il tarixdə başa çatmış il üzrə Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat (Balans)***

***(Azərbaycan Manatı ilə)***

| | Qeyd | 2021 | 2020 |
|---|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | | |
| Binalar, tikililər və qurğular | | 0.00 | 94,009.97 |
| Maşınlar, avadanlıqlar və hesablama texnikası | | 101,870.71 | 0.00 |
| Nəqliyyat vasitələri | | 70,202.94 | 0.00 |
| Uzunmüddətli aktivlər | | 7,225,537.49 | 0.00 |
| | | **7,397,611** | **94,010** |
| **Qısamüddətli aktivlər** | | | |
| Qısamüddətli debitor borcları | **5** | 3,046,151.74 | 6,582,583.35 |
| Ehtiyatlar | **6** | 8,924,176.89 | 5,682,030.89 |
| Digər aktivlər | | 1,793,551.37 | 0.00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | **7** | 1,620,281.52 | 1,651,624.71 |
| | | **15,384,162** | **13,916,239** |
| **CƏMİ AKTİVLƏR** | | **22,781,773** | **14,010,249** |
| **Kapital** | | | |
| Nizamnamə Kapitalı | | 40.00 | 94,009.97 |
| Bölüşdürülməmiş mənfəət | | 13,080,861.51 | 10,192,388.11 |
| **Cəmi Kapital** | | **13,080,902** | **10,286,398** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | **8** | 7,299,643.54 | 3,723,850.84 |
| Büdcə ilə hesablaşma | | 0.00 | 0.00 |
| Bank kreditləri | | 2,401,227.61 | 0.00 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **9,700,871** | **3,723,851** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **22,781,773** | **14,010,249** |

**Direktor**

**SABİR HƏMİDOV İSA OĞLU**

## «KASKAD-HİDRO» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT

***31 dekabr 2021-ci il tarixinə Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat***

***(Başqa cür qeyd edilmədiyi halda məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)***

| | 2021 | 2020 |
|---|---|---|
| **Gəlirlər** | | |
| Əsas əməliyyat gəliri | 18,205,475 | 23,973,902 |
| Əsas əməliyyat xərcləri | -14,476,679 | -17,742,612 |
| **Əməliyyat mənfəəti (zərəri)** | **3,728,796** | **6,231,290** |
| Digər gəlirlər | 0 | 63,611 |
| İnzibati və sair xərclər | 0 | -333,394 |
| Maliyyə xərcləri | 0 | 0 |
| Məzənnə fərqi | 0 | 0 |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | 3,728,796 | 5,897,897 |
| **Mənfəət vergisi** | -745,759 | -1,179,579 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **2,983,037** | **4,718,317** |

**Direktor**

**SABİR HƏMİDOV İSA OĞLU**

## «KASKAD-HİDRO» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI

***31 dekabr 2021-ci il tarixinə* Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
***(Başqa cür qeyd edilmədiyi halda məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)***

| | 2021 | 2020 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 3,370,600 | 5,805,457 |
| Mənfəət vergisi üzrə xərclər | -731,081 | -1,039,416 |
| Digər düzəlişlər (malyyə nəticəsi üzrə) | 248,955 | -608,378 |
| Uzunmüddətli aktivlərin silinməsi | 94,010 | 0 |
| Amortizasiya xərcləri | 40,475 | 13,025 |
| **Əməliyyat aktiv və passivlərində dəyişiklik-** | | |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | |
| Qısamüddətli debitor borcları: artma və ya azalma | 5,140,944 | -3,153,639 |
| Ehtiyatlar | -3,242,146 | 1,394,247 |
| Bank kreditləri | -757,104 | -640,100 |
| Digər aktivlər | -1,793,551 | 0 |
| Nizamnamə ksapitalı | -93,990 | -918 |
| Sair uzunmüddətli aktivlər artma və ya azalma | 0 | -12,107 |
| Qısamüddətli kreditor borcları artma və ya azalma | -2,020,420 | -486,183 |
| Qısamüddətli öhdəliklər | 0 | 0 |
| **Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | 0 | 0 |
| **İnvestisiya fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | 0 | 0 |
| Uzunmüddətli aktivlərin alınması | -313,536 | 0 |
| Qeyri-maddi aktivlərin alınması | -5,500 | 0 |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | 0 | 0 |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | 0 | 0 |
| Dividendlər və buna oxşar digər ödəmələr pul şəklində | 0 | 0 |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan xalis pul vəsaitləri** | 0 | 0 |
| | 0 | 0 |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma azalma** | -62,345 | 1,271,989 |
| **İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri** | 1,682,626 | 410,638 |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | 1,620,281 | 1,682,626 |

**Direktor**

**SABİR HƏMİDOV İSA OĞLU**

## «KASKAD-HİDRO» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

***31 Dekabr 2021-ci il tarixinnə Konsolidasiya edilmiş kapitalda dəyisikliklər haqqında hesabat***

***(Başqa cür qeyd edilmədiyi halda məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)***

**31 dekabr 2021-cı il tarixinə Kapitalda dəyişikliklər haqqında hesabat**

| | **Nizamnamə Kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Kapitalının cəmi** |
|---|---|---|---|
| **1 yanvar 2021-cı il tarixinə qalıq** | **94,010**<br>0 | **10,192,388** | **10,286,398** |
| Nizamnamə kapitalında artma | -93,990 | 0 | **-93,990** |
| Ödənilmiş divident | 0 | 0 | **0** |
| Hesabat dövrü üzrə xalis mənfəət | | **2,888,493** | **2,888,493** |
| **31 dekabr 2021-cı il tarixinə qalıq** | **20** | **13,080,882** | **13,080,902** |

**Direktor**

**SABİR HƏMİDOV İSA OĞLU**

**Qeyd 1: Giriş**

Biz, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən **FORUM MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR MÜƏSSİSƏSİ** - nə (VÖEN: 3100089731) verilmiş 15 may 2019-cu il tarixli AT seriyalı 020 saylı lisenziyasına və **"KASKAD-HİDRO" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ** (VÖEN: 1501942461) (bundan sonra "Cəmiyyət" adlanacaq) ilə bağlanmış 06 My 2022-ci il tarixli M-14017 saylı müqaviləyə əsasən 31.12.2021 -ci il tarixində bitən il üzrə **"KASKAD-HİDRO" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ-NİN** (VÖEN: 1501942461) və onun törəmə müəssisəsi olan **"KASKAD-AGRO" Məhdud Məsuliyyətli Cəmiyyətinin** (VÖEN: 1503790871) 2021-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla konsolidasiya edilmiş maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini apardıq.

**Qeyd 2: Sifarişçi haqqında ümumi məlumat**

**"KASKAD-HİDRO" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ** Azərbaycan Respublikasının Bakı şəhəri Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 10.11.2011-ci tarixdə Dövlət Qeydiyyatına alınaraq 1501942461 sayda dövlət qeydiyyat nömrəsi (VÖEN) verilmişdir..

**"Cəmiyyət"** - in nizamnamə fondu 20 (İyirmi) manat məbləğindədir. Təsisçilər Azərbaycan Respublikası vətəndaşı Aslanov Zakir İsmayıl oğlu 10 manat və Azərbaycan Respublikası vətəndaşı Həmidov Sabir İsa oğlu 10 manat nizamnamə kapitalında mayalara malikdirlər.

**"Cəmiyyət"** – in hüquqi ünvanı: AZ1029, BAKI ŞƏHƏRİ NƏRİMANOV RAYONU, ZİYA BÜNYADOV, ev 110 K

**Qeyd 3: Hesabat əsası**

Cəmiyyətdə mühasibat uçotu Azərbaycan Respublikası "Mühasibat uçotu haqqında" Qanununa, Vergi qanunvericiliyinə, Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən hazırlanmış "Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair" təlimatına əsasən aparılır. Maliyyə hesabatları həmin mühasibat qeydləri əsasinda hazırlanmış və lazımi şəkildə düzəldilmişdir ki, onlar bütün mühüm aspektlər baxımından Milli Mühasibat Standartları Komitəsinin qəbul etdiyi Milli Mühasibat Standartlarına uyğun olsun.

Auditin məqsədi 31 dekabr 2021-ci il tarixə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması, hesabatların düzgün tərtib olunmasının yoxlanılması, gəlir və xərclərin düzgün müəyyən edilməsininin təsdiq olunmasıdır.

Işin yerinə yetirilməsi zamanı audit qrupu "Audit fəaliyyətinin professional normaları", "Auditin Beynəlxalq Standartları" və həmçinin hamı tərəfindən qəbul olunmuş audit metodlarını rəhbər tutmuşdur.

Sifarişçi təqdim etdiyi hesabatlardakı ilkin məlumatlara görə vahid məsuliyyət daşıyır.

Maliyyə hesabatları Azərbaycan Respublikasının milli valyutası olan Manatla təqdim edilir.

**Qeyd 4: Mühüm mühasibat prinsipləri**

Aşağıdakı mühüm mühasibat prinsipləri əlavə edilən maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmişdir:

**Əlaqəli tərəflər**

Əlavə edilən maliyyə hesabatları məqsədilə tərəflər bu halda əlaqəli hesab edilir ki, bir tərəf maliyyə və əməliyyat qərarlarının qəbul edilməsi zamanı o biri tərəfə nəzarət etmək və ya o biri tərəfə əhəmiyyətli təsir göstərmək qabiliyyətinə malik olsun.

**Qeyd 4. Davamı**

**Nəğd vəsaitlər və nəğd vəsaitlərin ekvivalentləri**

Nəğd vəsaitlər və nəğd vəsaitlərin ekvivalentlərinə kassada olan nəğd pullar, banklarda olan hesablaşma və valyuta hesablarındakı qalıqlar aiddir.

**Debitorlar, kreditorlar, şübhəli və ümidsiz borclar üzrə ehtiyatlar**

Debitorlar və kreditorlar ödənilməmiş məbləğlərdə yarandığı dövrlərdə əks edilmişdir. Ümidsiz və şübhəli borclar üzrə ehtiyat rəhbərlik tərəfindən debitorların və avansların geri alınmasının qiymətləndirilməsinə əsaslanır.

Ehtiyatların təxminedilməsi fərziyyələrin istifadəsini tələb edir. Ehtiyat həcminin müəyyən edilməsi zamanı nəzərə alınan əsas amillər debitor borclarının artması, tərkibi və keyfiyyəti, vaxtı keçmiş debitorların həcmi, mövcud iqtisadı vəziyyətə uyğunluğudur.

Ödənilə bilməyən debitorlar və avanslar balansdan silinir və ümidsiz və şübhəli borclar üzrə ehtiyatlar yaradılmadığı üçün birbaşa zərərə aid edilir.

Vaxtı keçmiş kreditor borcları tələb olunmadığı halda gəlirə aid edilir.

**İnvestisiyalar**

İnvestisiyalar ilkin maya dəyərində əks edilən kapital investisiyalraından ibarətdir. Alınmış faizlər ayrıca olaraq faiz gəlirinə aid edilir. Bazar dəyərindəki azalma daimi hesab edilmədikdə, maliyyə hesabatlarında əks etdirilmir.

**Əsas vəsaitlər və qeyri-maddi aktivlər**

Əsas vəsaitlər və qeyri-maddi aktivlər toplanmış köhnəlməni çıxmaqla qalıq dəyərdə göstərilir. Əsas vəsaitlərin təmir və saxlama xərcləri, o cümlədən binaların və icarəyə götürülmüş binanın təmirinə çəkilən xərclər bu halda aktivləşdirilir ki, bu təmir və saxlama müvafiq aktivlərin iqtisadı həyatının uzanması və ya əhəmiyyətli şəkildə yaxşılaşması ilə nəticələnir və aktivin güman edilən iqtisadi həyatı və ya icarənin müddəti ərzində, bunlardan hansı daha az olarsa, bərabər aşınma üsulu əsasında köhnəlmə hesablanır. Sair təmir və saxlama xərcləri çəkildiyi zaman xərcə silinir.

**Qeyd 4. Davamı**

**Köhnəlmə**

Köhnəlmə bərabər aşınma prinsipinə əsasən əsas vəsaitlərin təxmi edilən faydalı həyatı ərzində tətbiq edilir.

Əsas vəsaitlərin amortizasiyası: Əsas vəsaitlərin amortizasiyası Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 114-cü «Amortizasiya ayırmaları və gəlirdən amortizasiya olunan aktivlər üzrə çıxılan məbləğlər» maddəsinə müvafiq olaraq qalıq dəyəri üzrə müəyyən olunmuş normalar əsasında hesablanır.

Amortizasiya olunan aktivlər üzrə illik amortizasiya normaları aşağıdakı kimi müəyyən edilir:

| | |
|---|---|
| Torpaqların yaxşılaşdırılması üzrə kapitallaşdırılmış xərclər, binalar, tikintilər və qurğular | 7 faizədək |
| Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası üzrə | 25 faizədək |
| Maşınlar və avadanlıq | 20 faizədək |
| Nəqliyyat vasitələri | 25 faizədək |
| Digər əsas vəsaitlər | 20 faizədək |

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətdə xarici valyuta ilə əməliyyatlar, mövcud qanunvericiliyə əsasən həmin əməliyyat günü qüvvədə olan valyuta məzənnəsi ilə qeydə alınır. Xarici valyuta əməliyyatlarından yaranan məzənnə fərqi həmin gün qüvvədə olan valyuta məzənnəsindən istifadə etməklə gəlir və xərc hesabatına daxil edilir.

Xarici valyuta ilə ifadə edilən aktiv və passivlər ARMB-nın balans tarixinə qüvvədə olan rtəsmi xarici valyuta məzənnəsi ilə Azərbaycan manatına çevrilir. Aktivlərin və passivlərin çevrilişindən yaranan məzənnə gəlir və zərəri illik gəlir hesabatında, xarici valyutada əməliyyatlarından əldə edilən xalis gəlirin tərkibində qeydə alınır.

31 dekabr 2021-ci il vəziyyətinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə edilən əsas valyuta məzənnəsi: 1 ABŞ dolları 1.7000 manat və 1 AVRO 2.9265 manat götürülmüşdür.

**Gəlir və xərclərin qeydə alınması**

Gəlirlər və xərclər hesablama metodu əsasında müəyyən edilir.

**Mənfəət vergisi**

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır. Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

**Gəlirin tanınması**

Gəlir satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Satışdan gəlir aşağıdakı qaydada tanınır:

*(a) Malların topdan satışından gəlir*

Malların satışından gəlir o vaxt tanınır ki, Cəmiyyət tərəfindən mallar alıcıya çatdırılmışdır, alıcı malları qəbul etmişdir və müvafiq olan debitor borcunun alınması üçün kifayət dərəcədə ehtimal vardır.

*(b) Malların pərakəndə satışından gəlir*

Malların satışından gəlir Cəmiyyətin tərəfindən alıcıya malları satması zamanı tanınır. Pərakəndə satış adətən nağd qaydada ödəniş yolu ilə aparılır. Əks etdirilmiş satışdan gəlir, sövdələşmənin həyata keçirilməsi ilə əlaqədar ödənilmiş yığımlar da daxil olmaqla, satışdan gələn məcmu hasilatı əks etdirir. Belə yığımlar malların satış xərclərinə aid edilir.

**Risklərin idarə edilməsi**

Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Kredit riski***

Cəmiyyətin kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir.

***Bazar riski***

Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

***Faiz dərəcəsi riski***

Cəmiyyətin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

"KASKAD-HİDRO" MMC-nin

Direktoru: ____________ SABİR HƏMİDOV İSA OĞLU

«Forum» MMAM-nin

Direktoru: ____________ AYDIN SƏTTAR

Baş auditoru: ____________ YAQUB ABDULLAYEV